**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**

**ƏMR**

**27 may 2022-ci il** **MİHO/1.3-3.1-2022-130**

**"Respublikada immunizasiya tədbirlərini həyata keçirən dövlət tibb müəssisələrində "soyuq zəncir" sistemi avadanlıqlarının inventarlaşdırılması qaydaları üzrə təlimlərin keçirilməsi barədə"**

Uşaqların sağlamlığının qorunması sahəsində prioritet istiqamətlərdən biri olan immunoprofilaktikanın əsas prinsipi təhlükəsiz və effektiv immunlaşdırmaya nail olmaqdır.

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü bəndini rəhbər tutaraq, 2022-ci ildə uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Planının 2.2-2.4-cü bəndlərinin icrası və Avropa İttifaqının maliyyə dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatının həyata keçirdiyi "COVID-19 əleyhinə vaksinasiyaya dəstək" layihəsi çərçivəsində "soyuq zəncir" sistemi üzərində nəzarətin gücləndirilməsi məqsədilə

**əmr edirəm:**

1. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (bundan sonra – Mərkəz) baş direktoru S.Həsənovaya tapşırılsın:

1.1. Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə 2022-ci ilin 30 may-03 iyun tarixlərində Mərkəzin bazasında yerli təlimçilərin hazırlanması məqsədilə "soyuq zəncir" sistemi avadanlıqlarının inventarlaşdırılması qaydaları üzrə təlimlərin keçirilməsi təmin edilsin;

1.2. 2022-ci ilin iyun-avqust aylarında respublikanın şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərində yerli təlimçilər tərəfindən immunizasiya üzrə mütəxəssislər üçün "soyuq zəncir" sistemi avadanlıqlarının inventarlaşdırılması qaydalarına dair 2 günlük təlimlər keçirilsin.

2. Respublikanın şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın:

2.1. immunizasiya üzrə 2 nəfər mütəxəssisin təlimlərdə iştirakı təmin edilsin;

2.2. təlim keçmiş mütəxəssislər tərəfindən ərazi üzrə immunizasiya tədbirlərini həyata keçirən bütün tibb müəssisələrində 30 sentyabr 2022-ci il tarixinədək "soyuq zəncir" sistemi avadanlıqlarının qeydiyyatı aparılsın.

3. Təlimlərdə və "soyuq zəncir" sisteminə aid avadanlıqların inventarlaşdırılmasında mütəxəssislərin iştirakı ilə bağlı xərclərin Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən ödənilməsi nəzərə alınsın.

4. Əmrin icrasına nəzarət nazir müavini Nadir Zeynalova həvalə olunsun.

**Nazir** **Teymur Musayev**

Əsli ilə düzdür